# Qürbətdə Novruzdan vətən ətri gəlir

**Tələbəlik illərindən yaddaşımızda qalan ən gözəl xatirələrdən biri də 50 il əvvəl, 1974-cü ildə Moskva şəhərində keçirdiyimiz Novruz bayramıdır. O zaman bu, bizim üçün adi bir tədbir olsa da, aradan illər keçdikcə ən müqəddəs xatirələrdən birinə çevrildi və yaddaşımıza ən gözəl bayram kimi əbədi həkk olundu. Hərdən tələbə yoldaşlarımızla yığışıb xatirələri vərəqləyəndə, 1974-cü ilin Novruzunun bizim üçün nə qədər əziz olduğunu sidqi-ürəkdən etiraf edirik.**



O illərdə Moskva Energetika İnstitutunda azərbaycanlı tələbələrin sayı, demək olar ki, Rusiyanın digər ali təhsil məktəblərində oxuyan həmyerlilərimizin sayından çox idi. Belə ki, burada energetika, elektronika ilə bağlı nadir peşələr var idi. Ona görə də oraya Azərbaycandan oxumağa daha çox tələbə göndərirdilər. Həm də demək olar ki, əksəriyyətimiz Bakıda Azərbaycan dilində imtahan verib Moskvada rus dilində oxuyurduq. Ona görə də çoxumuz rus dilini zəif bilirdik. Hətta Moskvada bizim üçün ayrıca rus dili dərsləri də təşkil etmişdilər.

Dili bilsək də, bilməsək də, içimizdə bir vətən sevgisi var idi. Moskvada təhsil almaqdan qürur duyur, bu, mümkün olmasa da, çalışırdıq ki, yaxşı oxuyaq. Ruslara qaynayıb-qarışmaqla yanaşı, milli-mənəvi dəyərlərimizi uca tuturduq. Ona görə də qış tətilindən qayıdandan sonra beynimizə dolan yaz havasından təsirlənib Novruz bayramını keçirməyi qərara aldıq. İnstitutun böyük yeməkxanalarından münasibini seçib rektorluğa ərizə ilə müraciət etdik ki, Novruz bayramını keçirməyə icazə versinlər. Keçən əsrin 70-ci illərində bu bayramın hətta Azərbaycanda belə rəsmi qeyd edilmədiyi, həm də bir qədər sıxışdırıldığı yəqin ki, hamının yadındadır.

Ona görə ağlımıza o da gəlirdi ki, bəlkə bayram keçirməyimizə icazə verməyəcəklər. Amma gözlədiyimiz kimi olmadı. Ərizəmizə heç bir şeyi soruşmadan, dəqiqləşdirmədən gözübağlıca qol çəkdilər. Bizə qəribə gələn o idi ki, Azərbycanda uzun illər qadağa qoyulan Novruz bayramının Moskvada keçirilməsi heç kim üçün ciddi məsələ deyildi. Bizə heç kim demədi ki, bu bayram Azərbaycanda uzun illər boyu "yada salınmayıb" və ona həmişə bir qədər siyasi don geyindiriblər.

Sevincimizin həddi-hüdudu yox idi. İcazə aldıqdan sonra tədbirimiz maraqlı olsun deyə özümüz ssenari yazmağa başladıq. Bakıdan bayram süfrəsi üçün Novruz şirniləri və yaz çiçəkləri sifariş etdik. Bundan başqa həm də Moskvada digər institutlara da xəbər göndərdik ki, iştirak etmək istəyənlər gəlsinlər. Ssenarini hazırlayıb MDU-nun Jurnalistika fakültəsinin tələbələrinə məclisi aparmaq üçün verdik. Hamımız çalışırdıq ki, tədbirimiz yüksək səviyyədə keçirilsin, bayramımız gözəl və unudulmaz olsun. Zalda isə işıqları söndürüb masaların üstünə Novruz şamlarını düzdük.

*Gəlin uzaq edək qüssəni, qəmi,*
*Biz insan qəlbinin dərinliyindən.*
*Dostlarım, ürək də fikir çəkərmi,*
*Bizim ellərə bahar gələrkən?!*

Bayramı bu misralarla başladıq və hamının qəlbinə yatan bənzərsiz gecə keçirdik. Moskvanın digər ali məktəblərindən gələnlər də çox oldu.

Masaların üstündə içki yox idi. Hamı bir ağızdan demişdi ki, bu bayramda içki içilməsi günahdır. Bir-iki xristian qonağımız isə mat qalmışdı ki, bu necə bayramdır ki, süfrədə bir qram içki yoxdur!

Biz adət və ənənələrimizə ecazkar vətən sevgisi bəslədik. İçimizdə oyanan milli ruhun qüruru bayraq kimi hamımızın başı üstündə dalğalanırdı.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan. - 2024.- 20 mart, № 62.- S.10.